# Ana səhifə başlıqlar:

**Ev    Haqqımızda    Xidmətlər    Xəbərlər    Əlaqə**

# Haqqımızda

Biz fəaliyyətimizi SƏTƏM (Standartlaşdırma, Əmək Təhlükəsizliyi və Ətraf Mühit) prinsipləri əsasında quraraq, xüsusilə sənaye sektoruna yönəlmiş peşəkar xidmətlər təqdim edirik. Bu yanaşma müəssisələrdə təhlükəsiz, dayanıqlı və standartlara uyğun əməliyyat mühitinin formalaşdırılmasına real töhfə verir.

Eyni zamanda, bizneslərin və fərdlərin inkişafını dəstəkləmək məqsədilə peşəkar təlim proqramları və konsultasiya xidmətləri həyata keçiririk. Xidmətlərimiz təşkilatların daxili sistemlərini gücləndirməyə, komandaların səriştələrini artırmağa və nəticə yönümlü inkişaf modelini qurmağa fokuslanır.

## Məqsədimiz

Təşkilatların və komandaların:

- təhlükəsiz və sağlam iş mühitində daha səmərəli fəaliyyət göstərməsinə,
- yeni bacarıqlar və beynəlxalq yanaşmalar qazanmasına,
- risklərin idarə olunması və proseslərin təkmilləşdirilməsi vasitəsilə ölçülə bilən nəticələr əldə etməsinə dəstək olmaq.

## Viziyamız

Azərbaycanda və regionda SƏTƏM sahəsində:

- etibarlı və nüfuzlu ekspert tərəfdaş kimi tanınmaq,
- sənayedə təhlükəsizlik və dayanıqlılıq mədəniyyətinin inkişafına töhfə vermək,
- beynəlxalq standartlara əsaslanan müasir həllərlə təşkilatların inkişafında strateji rol oynamaq.

# Xidmətlər:

## Təlim kursları

- “Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit (SƏTƏM)” üzrə təlim kursu
- “Təhlükəli yüklərin daşınması və saxlanması” üzrə təlim kursu
- “Hündürlükdə iş təhlükəsizliyi” üzrə təlim kursu
- “Mobil qaldırılmış iş platformalarının (MQİB) təhlükəsiz istifadəsi” üzrə təlim kursu
- “Qapalı məkanlara təhlükəsiz daxil olma” üzrə təlim kursu
- “Mexaniki qaldırma əməliyyatlarının təhlükəsiz aparılması” üzrə təlim kursu
- “Təhlükəsiz qaynaq və digər isti işlər” üzrə təlim kursu
- “Təhlükəsiz sürücülük” üzrə təlim kursu
- “Təhlükəsiz əl ilə yükləmə” üzrə təlim kursu
- “Hadisə araşdırması və kök səbəb təhlili” üzrə təlim kursu
- “Risk idarəetmə - müəyyənləşdirmə və qiymətləndirmə” üzrə təlim kursu
- “Təsdiqlənmiş qaz sınaqçısı (AGT)” üzrə təlim kursu
- “Yanğın təhlükəsizliyi” üzrə təlim kursu
- “Sağlamlıq üçün təhlükəli maddələrə nəzarət qiymətləndiricisi” üzrə təlim kursu
- “İşə icazə (Permit-to-Work - PTW) və enerji izolyasiyası” üzrə təlim kursu
- “Qazanxana operatoru” üzrə təlim kursu
- “Ümumi qaynaqçı” üzrə təlim kursu
- “Mobil kran operatoru” üzrə təlim kursu
- “İlməkçi” üzrə təlim kursu
- “Dəmirbənd/Taxtabənd üzrə ümumi məlumatlandırma” üzrə təlim kursu
- “Çəngəlli yükləyici operatoru” üzrə təlim kursu
- “Elektrik montyoru” üzrə təlim kursu

## Beynəlxalq təlim kursları

- NEBOSH AWARD LEVEL COURSES
- ROSPA DEFENSIVE DRIVING
- NEBOSH IGC
- IOSH MANAGING SAFELY
- HSE LEADERSHIP
- ISO 9001/ ISO 45001/ ISO 14001/ ISO 37001/ ISO 50001
- IIRSM COURSES
- ISO 22000 FOOD SAFETY MANAGEMENT SYSTEM
- PMP/ PEOJECT MANAGEMENT
- CIEH SAFETY LEVEL 1, 2, 3

## Konsultasiya

- SƏTƏM sisteminin qurulması və sənədləşmə
- Risklərin qiymətləndirilməsi və idarə edilməsi
- Audit və uyğunluq yoxlamaları
- İnsident araşdırmaları və tədbirlər planı

## ESG

Eyni zamanda, ESG sahəsində maarifləndirmə, təlim materiallarının hazırlanması və seminarların təşkili istiqamətində də fəaliyyət göstəririk. Bu çərçivədə, şirkətlərin ESG performansını qiymətləndirmək və onların davamlı inkişafını təmin etmək üçün innovativ həllər təklif edirik. Məqsədimiz ESG prinsiplərinin davamlı tətbiqini və inkişafını təmin etməklə şirkətlərə uzunmüddətli uğur qazandırmaqdır.

Azərbaycanda ESG prinsiplərinin inteqrasiyasını gücləndirmək və dövriyyəli iqtisadiyyatı dəstəkləmək məqsədi ilə göstərdiyimiz məsləhət xidmətləri, dövlət və özəl sektorlar arasında bu meyarların yayılmasına təkan verəcəkdir. Bu layihə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in "Təmiz ətraf mühit və yaşıl artım" ölkəsi hədəfinə uyğun olaraq həyata keçiriləcəkdir.

# Müştərilər  və Tərəfdaşlar hissəsi olacaq

## Müştərilər

AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL
MÜNASİBƏTLƏR AKADEMİYASI

## Tərəfdaşlar

AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL
MÜNASİBƏTLƏR AKADEMİYASI

IOSS
INDUSTRIAL & OPERATIONAL
SUPPORT SERVICES

# Xəbərlər:

22 dekabr 2025-ci il tarixində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası (AƏSMA) ilə "Bilge Method" MMC arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumun əsas məqsədi Azərbaycanın 2030-cu ilədək və sonrakı dövr üçün insan kapitalının inkişafı üzrə müəyyən edilmiş vizyonuna uyğun olaraq AHİK üzvləri arasında ömürboyu öyrənmə mədəniyyətinin formalaşdırılmasına töhfə verməkdir. Əməkdaşlıq çərçivəsində iş yerlərində məhsuldarlığın və rəqabət qabiliyyətinin artırılması, eyni zamanda AHİK-in sosial təsirinin və institusional rolunun gücləndirilməsi hədəflənir.

Tədbirdə Akademiyanın təlim-tərbiyə işləri üzrə prorektoru və rektor vəzifəsini müvəqqəti icra edən Fərid Babayev çıxış edərək əmək bazarının dəyişən tələblərinə cavab verə biləcək kadrların hazırlanmasında SƏTƏM sahəsində bilik və bacarıqların artırılmasının vacibliyini vurğulayıb. O, bu əməkdaşlığın tələbələrin peşəkar inkişafına və təhlükəsiz iş mühitinin formalaşdırılmasına xidmət edəcəyini bildirib.

"Bilge Method" MMC-nin direktoru Adil Abdullayev çıxışında şirkətin SƏTƏM əsaslı fəaliyyət istiqamətləri və təlim proqramları barədə məlumat verib. O, memorandum çərçivəsində iki əsas prioriteti qeyd edib. Birinci prioritet IOSH, NEBOSH və ISO 45001 kimi beynəlxalq standartlara əsaslanan SƏTƏM və sertifikatlaşdırma istiqamətidir. Bu yanaşmalar əməyin təhlükəsizliyinin təmin olunmasına, risklərin azaldılmasına və insan həyatının qorunmasına xidmət edir.

İkinci prioritet bilik, bacarıq və səriştələrin ölçülə bilən inkişafının təmin edilməsidir. Bu məqsədlə Səriştələr və Kompetensiyalar Mərkəzinin yaradılması, insan kapitalının qiymətləndirilməsi və inkişafına yönəlik proqramların icrası planlaşdırılır.

Memorandum təlimlərin təşkili, kadr hazırlığı, mentorluq xidmətləri, Karyera Mərkəzinin qurulması və inkişafı, birgə layihələrin icrası, qarşılıqlı təcrübə və resurs mübadiləsi, eləcə də AƏSMA tələbələri üçün təlim proqramlarının təşkilini və ictimai əhəmiyyətli təşəbbüslərin dəstəklənməsini əhatə edir.






QÜVVƏT ELMDƏDİR
BAŞQA CÜR HEÇ KƏS
HEÇ KƏSƏ ÜSTÜNLÜK
EYLƏYƏ BİLMƏZ !
Vüsal Qasımov
Adil Abdullayev


Farid Babayev
Adil Abdullayev


Farid Babayev
Adil Abdullayev

# Əlaqə:

info@bilgemethod.az

FB: Bilge Method

IG: bilgemethod.az

LIn: Bilge Method

Ünvan: Zaur Nudirəliyev, 62